# MÜƏLLİFDƏN VƏ YA ÖN SÖZ ƏVƏZİ



**Əziz oxucu!**

Məlum olduğu kimi, Sizin görüşünüzə həmişə şeir kitablarımla gəlmişəm. "Boladiyə gedən yollar", "Bitməz sevgi mahnısı", "Bura Vətəndir, qardaşım" və müəllifi olduğum digər şeir topluları artıq mühakimənizdədir. Təbii ki, Sizin rəyiniz, reaksiyanız, şeirlərimə obyektiv müdaxiləniz yaradıcılıq məsuliyyətimi artırmaqla bərabər, eyni zamanda mənə yeni yaradıcılıq əhval-ruhiyyəsi bəxş edir. Çalışıram ki, poetik nümunələrimlə Azərbaycan poeziyasının inkişafına bacardığım qədər öz töhfəmi verə bilim, həm də bədii zövqünüzü oxşamaqla tələbkarlığınıza uğurlu axtarışlarımla, yeni poetik fikirlərimlə cavab verim.

Qeyd edim ki, şeir ötəri hislərin, duyğuların məhsulu deyil, o, böyük istedad, coşqun ilham, yaradıcılıq axtarışları tələb edir. Necə ki, sevimli şairimiz Tofiq Bayram deyir:

Hər ürək bir buna gətirməyir tab, Şairlik nə bəylik, nə sultanlıqdır. Şairlik ən böyük əziyyət, əzab, Şairlik ən böyük qəhrəmanlıqdır.

Bu dəfə isə görüşünüzə nəsr kitabı ilə gəlmiş, yaradıcılığımda ilk dəfə roman janrına müraciət etmişəm. "Seyid və Fatimə" adlandırdığım bu roman əsasən, bədii təxəyyülümün məhsuludur. Lakin, bununla belə diqqətə çatdırıram ki, əsərin qəhrəmanı Seyid həm də tarixi şəxsiyyətdir. Lənkəran rayonundakı Boladi kəndinin Seyidoba məhəlləsindəki məscidin girəcəyində onun məzarı və başdaşında isə ərəb əlifbası ilə qeyd olunmuş yazı var.

Təbii ki, bu məzar dövlət tərəfindən müqəddəs ziyarətgah kimi qorunur. Hər dəfə bu məzarı ziyarət edəndə düşünürdüm ki, görəsən burada uyuyan Seyid adlı şəxs kimdir? Hardan bura gəlib? Bu suallara cavab olaraq xeyli axtarış apardım, məlumatlar topladım. Məlum oldu ki, Seyidin adamlarından hətta Şah İsmayıl Xətainin Səfəvi qoşununda iştirak edənlər var.

Seyid İranın Nəmin vilayətində yaşamış, basqın və ədalətsizlikdən cana doyaraq Şimali Talış zonasına üz tutur. Atası, məşhur sərkərdə Rüstəmi öz əlləri ilə basdırdıqdan sonra yadelli işğalçılara qarşı mübarizə aparacağına and içir.

Bu yerlərə gələrkən yaşayış üçün ən münasib məkan kimi Boladi kəndini seçir. O zaman Boladi kəndi indiki ərazisindən qat-qat kiçik idi. Çünki kənd həm də çökəklikdə yerləşdiyinə görə, onun yalnız bir hissəsi hündürdə olduğundan yaşayış üçün yararlı olub. Məhz, bu hissədə qərarlaşan Qara Seyid üçün Boladi həmişəlik vətən olur. O, burada evlənir və törəmələri artır. Yaşadığı yer də məhz onun adıyla Seyidoba adlanır. Sonralar nəslin bir neçə nümayəndəsi kəndin aşağı hissəsinə köçərək dini təhsili yaymaqla məşğul olub. Mülahizələrə görə, məhz onların adı ilə həmin məhəllə Molloba adlandırılmışdır. Nəslin qalan nümayəndələri Seyidoba məhəlləsində qalaraq nəsil törəmələri artırmışlar. Qara Seyid vəfat etdiyi yerdə, yəni indiki Qara Seyid (talış dilində "Syo Səyd") adlanan məscidin həyətində dəfn olunmuşdur. Qara Seyid Allaha, dinə bağlı və əməlisaleh insan olduğundan, məhz onun adıyla 19-cu əsrdə nəvələrinin və məhəllə camaatının köməyi ilə məzarın yanında məscid tikilmişdir. Neçə illərdir ki, Syo Səyd (Qara Seyid) adıyla tanınan həmin məscid qəlbi Allah eşqi ilə döyünən minlərlə insanın pənah gətirdiyi iman ocağı və inanc yeridir. Allah rizası üçün bu ocağı kənd camaatı və qonşu kəndlərdən gələn insanlar ziyarət edir, namaz qılır və qurbanlar kəsirlər.



*Salman Məmmədoğlu kitabın sponsoru Maarif Rafiq oğlu Nəcəfovla birlikdə*

Təbii ki, bütün bu araşdırmalar, məlumatlar əsasında "Seyid və Fatimə" romanı ərsəyə gəldi. Əsərin qəhrəmanları Seyid və Fatimə öz dövrünün oxumuş, savadlı adamlarıdır. Onları təkcə məhəbbət macəraları deyil, el-oba təəssübkeşliyi, xalqa, cəmiyyətə bir vətəndaş kimi fayda vermək, eyni zamanda işğalla, haqsızlıqla barışmamaq, ən çətin məqamda belə haqqədaləti dəstəkləmək və s. məsələlər ciddi düşündürür.

Vətən məhəbbəti, vətən sevgisi həmişə ön plana çəkilir:

Sadıq baba son sözlərinin ardını güclə gətirdi...

-Seyid, oğlum, - dedi - Məni atan Rüstəmin yanında torpağa tapşırarsan... Axır ki, bir gün də olsa azad torpaqda yaşadım. Rüstəm isə bu xoşbəxt günləri görmədi..

Ümumiyyətlə, qələmə aldığım bu romanda cərəyan edən bütün hadisələr məhz nəticə etibarı ilə haqq-ədalətin qələbəsinə, təntənəsinə gətirib çıxarır. Eyni zamanda, əsər öz xoşbəxtliyini başqalarının bədbəxtliyi üzərində quranlara, xalqın var-yoxunu talayanlara qarşı ciddi ittiham kimi səslənir...

Təbii ki, bir müəllif kimi, əsərin bütöv təhlilini vermək fikrində deyiləm. Bu, ədəbi tənqidin, tədqiqatçıların işidir.

**Əziz oxucu!**

İlk dəfə müraciət etdiyim bu irihəcmli nəsr əsəri necə qarşılanacaq, hansı hiss və duyğuları oyadacaq, deyə bilmərəm. Bircə onu bilirəm ki, əsas söz, təklif və rəy sizindir. Yalnız Sizin verəcəyiniz obyektiv re- aksiya gələcək yaradıcılıq yoluma işıq sala bilər.

***Hörmətlə:***
***Sizin Salman Məmmədoğlu***

# SEYİD VƏ FATİMƏ

***ROMAN***
***I hissə***

**I FƏSİL**

## YENİ HƏYATA APARAN YOLLAR

O, neçə gün idi ki, at belində yol gedirdi, hara getdiyini özü də bilmirdi. Doğma elindən, obasından, ailəsindən ayrılıb tanımadığı yerlərə üz tutmuşdu, daha doğrusu, onu cilovunu sərbəst buraxdığı vəfalı atı aparır, insanlardan, onların qəddarlığından baş götürüb qaçırdı, elə bir yar axtarırdı ki, orada sakit, azad yaşaya bilsin. Vətənindən fərqli olaraq, onun qədəm qoyduğu torpaqlar havası, füsunkar, əsrarəngiz təbiət gözəllikləri ilə müsafiri heyran edir, ağlını başından alırdı. Bəzən at sahibinin diqqətsizliyi ucbatından meşənin sıx, keçilməz yerlərində ilişib qalır, onun xəyallardan ayılıb yol göstərəcəyini gözləyir, yenidən geri qayıdıb cığırlarla aşağı enir, dərin yarğanların əhatəsində axan çayın sahilləri ilə hərəkət edirdi. Müsafirin kədərli, tutqun baxışları onun əzablar içində çırpındığından, daxilində baş qaldıran narahatlıqdan xəbər verirdi. Arabir, sanki yuxudan ayılırmış kimi dayanır, ətraflara diqqətlə göz gəzdirir, bir anlıq hər şeyi unudub meşənin saf, təmiz havasından acgözlüklə ciyərlərinə çəkir, kədərli əhvali-ruhiyyəsindən əsər-əlamət belə qalmırdı. Buralarda hündür, sıx ağacların başı göyə dirənir, günəş şüaları yarpaqların arasından süzülüb torpağa hopur, yay olmasına baxmayaraq, insana həyat verən xoş bir sərinlik yaranır, dağ çayının şırıltısı, bülbüllərin cəh-cəhi, meşə quşlarının aramsız oxumaları təbii bir simfoniyanı xatırladırdı. Hər iki tərəfdən dərin və hündür yarğanların arası ilə sürətlə axan dağ çayının hayqırtısı, hərdənbir hansısa çox güclü meşə heyvanının tükürpərdici və qorxunc nərəsi ucsuz-bucaqsız meşənin dərinliyində vurnuxan atlıya sanki sehirli və sirli bir aləmə düşdüyündən xəbər verirdi. İnsan ayağı, insan əlinin dəymədiyi bu yerlər: bitkilər, heyvan və quşlar aləminin zənginliyi, təbiətin rəngarəng və təkrarsız naxışları bu gözəlliyi daha da artırır, atlıya elə gəlirdi ki, heç bir rəssam bu tablonu yaratmaq bacarığına malik deyildir, yalnız ilahi möcüzəsinin qüdrəti buna qadirdir. Müxtəlif növlü ağaclar, onların yarpaqları, bu ağaclarda yetişən meyvələrin hərəsinin öz rəngi, öz dadı, quşlar və heyvanlar aləminin müxtəlif növləri və çoxluğu müsafiri heyran edirdi. Gənc atlının yerinə kim olsaydı, bəlkə də geriyə dönüb gəldiyi ölkəyə qayıdar, onu gözləyən qorxunc və gözlənilməz təhlükələrdən qorunmağa çalışardı. Çünki irəlidə onu nələrin gözlədiyini, başına nələrin gələcəyini müəyyənləşdirmək, ağac və kolluqlar keçilməz sədd yaratdığından 2-3 metr irəlidə baş verəcək təhlükəni hiss etmək - görmək mümkün deyildi. Düşmən; əgər o, insandırsa asanlıqla bütün hərəkətlərinə göz qoyub ox və ya nizə ilə vura bilər, yox əgər vəhşi heyvandırsa, pusquda durub hər an sənin üstünə atıla biləcək, çünki sən onu görmürsən və müdafiə olunmağa hazır deyilsən. Gənc atlının zirək və güclü olduğu zahiri əlamətlərindən bəlli olsa da, ehtiyatlı və narahat olması da diqqətdən yayınmırdı.

Yolboyu irili-xırdalı çoxlu mağaralara rast gəlirdi, bu mağaralar qalın və sıx ağacların əhatəsində olduğundan onları uzaqdan seçmək mümkün deyildi. Yalnız ağacların qolbudaqlarını araladıqdan sonra bu mağaralara gedən yolu tapmaq olardı, üstəlik içərisi qaranlıq olduğundan qorxulu və vahiməli görünürdü, vəhşi heyvanların buralarda yuva salması da mümkün olduğundan, gecələmək üçün daha münasib yerlər axtarmalı olurdu. Olduqca sıx, hündür ağacların arasında, çətinliklə keçilən cəngəlliklərdə gözlənilmədən yırtıcı heyvanlara rast gəlmək mümkün olduğundan, Seyid ehtiyatı da əldən buraxmır, qılınc və nizəsindən möhkəm yapışaraq qəfil hücumlara qarşı hazır vəziyyətdə dururdu. Qarşıdakı hədəfi müəyyənləşdirmək üçün çox diqqətli olmaq, hər xışıltını təyin etmək, hənirtini duymaq üçün bəzən dəqiqələrlə yerində qalıb gözləməli olurdu. Dağların hər qarışı ağac və müxtəlif bitkilərlə örtülmüş bu yerlərdə heç bir varlıq gözə dəymir, ana təbiət məşəqqətlər və iztirablar içində dərin fikirlərə qərq olmuş gənc müsafirin ruhunu oxşayıb sakitləşməsi və dincəlməsi üçün hər cür şərait yaratmışdı.

***(Davamı gələn sayımızda)***

***Oxucularımıza təqdim etdiyimiz bu kitabın müəllifi rusiyalı araşdırmaçı publisist Modest Kolerovdur. Onun ermənilərin "milli qəhrəmanı", faşist xislətli Njde Qaragenin fəaliyyətində yeni arxiv sənədlərin aşkar edilərək kitab şəklində dünya ictimaiyyətinə çatdırması bir daha sübut edir ki, faşizmə barışmayan dünya erməni xislətini də tanımalı, mübarizə sürətlə davam etməlidir.***

# QAREGİN ƏSL ERMƏNİ FAŞİSTİ OLUB

## Гарегин Нжде: миф и реальность

*(Əvvəli ötən sayımızda)*

Мы уже говорили, что в заключительной части этой истории вернёмся к наболевшему обсуждению "сфальсифицировано - не сфальсифицировано", дабы убедиться, что ничего "не сфальсифицировано", что у чекистов для этого не было причины. Это потом, а теперь продолжим... Больше всего Нжде пугала глава его зангезурской деятельности. Здесь он уже не был марионеткой, здесь он был хозяин, и всё происходило по его приказу, в том числе расстрелы. "Рыцарь", сам себя провозгласивший "хуступским орлом", дабы избежать возможной смертной казни, "скромно" преуменьшает "историческое значение своей исключительной личности", готов к любому принижению: да, он был спарапетом (главнокомандующим), но в Общезангезурском собрании, якобы, особой роли не играл. Теперь приведём не очень длинную, но весьма характерную цитату из газеты тех далёких лет: "Будущий историк должен, подобно Диогену, взяв фонарь, разворошить историю нашего века, чтобы найти тех идейных деятелей, деяния которых подобны свершениям героев старых сказок... историк найдёт очень мало тех, чьё имя будет достойно увековечивания... Безусловно и несомненно, в их числе будет имя Гарегина Нжде...". Прочтём название этой газеты - "Сюник", напечатана в Горисе, в 1920 году. Не удивляйтесь, если однажды "будущий историк, взяв фонарь Диогена", случайно "разворошит и найдёт", что автор этого великолепного дифирамба - сам Нжде. Но давайте продолжим. Как видно из протокола № 5, он в своих ответах подчас доходит до полного бреда. На вопрос, к какой Армении он хотел присоединить Зангезур, перепуганный "герой", чтобы понравиться следователю, отвечает: "к Советской Армении". "Только ради того, чтобы влачить жалкое существование, - не пресмыкайся, не унижайся, не лги! Лгать - значит бранить истину, отрекаться - значит перестать



Модест Колеров

Был ли Нжде признан в СССР гитлеровцем? Да!

Архивные материалы

В Армении поклонники, адвокаты и последователи гитлеровца Гарегина Нжде пытаются доказать, что известное и опубликованное еще в 2007 году обвинительное заключение по итогам следствия, которое содержит прямое обвинение его в сотрудничестве с гитлеровцами, якобы было не окончательным и в финале суда над Нжде обвинение о сотрудничестве с Гитлером было снято.

Вот эти документы по армянским архивам: Нжде и Гитлер: подробности (из сборника документов: *Ваче Овсепян*. Гарегин Нжде и КГБ: воспоминания разведчика. Ереван, 2007)

**Протокол допроса 12 октября 1944**

[Берлин, октябрь 1942:]

«В заключение я спросил: чем мы, армяне, можем помочь Германии в этой войне. Я предложил... открыть в Берлине школу для армян, выпускников которой мы и выделим с тем, чтобы немцы их подготовили и использовали по своему усмотрению.

Друм ухватился за это предложение и поручил мне выделить в Болгарии группу армян — примерно 30 человек, направить их в Берлин, где их подготовят для переброски в диверсионных

*Гарегин Нжде после ареста*

ПОВЕСТКА

*Повестка к заседанию Особого Совещания при Министре Государственной Безопасности СССР. Страница 1*

и других целях в Советскую Армению, когда немецкие войска подойдут к границам Армении, а также помощи немцам изнутри для скорейшего освобождения Армении от большевистских войск.

быть человеком..." - это тоже одна из часто цитируемых "мудрых заповедей" "рыцаря", и снова сказано для других, это тоже не для него, потому что ему "можно" и пресмыкаться, и унижаться, и лгать, но ведь он это делает не просто так, ему необходимо остаться живым, разумеется, "для нации и назло туркам". Ну, после всего этого, "печальный рыцарь" вызывает только отвращение. Ужас перед смертью вверг его в панику, он даже потерял способность логично лгать. Нет, вы только представьте себе, сначала "по-геройски" объявить Зангезур отделённым от Советской Армении, сражаться против Советской Армении, проливать кровь армян, а потом объяснить, что он это делал ради присоединения к Советской Армении. Следователь, конечно же, очень хорошо знал, кого допрашивает, знал, что он лжёт. Да и сам Нжде также знал, что он знает. Однако опять-таки неважно, поверят ему или нет, только бы он смог показать, что готов служить, пускай они не верят, но увидят его угодливость, увидят его унижение, увидят его падение, увидят и, быть может, пощадят. Давайте в связи с этим познакомимся с резолюцией, принятой съездом: "Зангезур всегда стремился и стремится быть неотделимой частью родины - Армянской Республики, но, учитывая последние политические изменения в Армении, что она вынужденно из-за ряда неудачных политических обстоятельств объявила себя советской, это правопорядок, с которым никогда не сможет примириться наш народ, съезд решил отделиться от этого правопорядка, действовать самостоятельно и жить собственной жизнью" (25.12.1920). Лейтмотив спасения жизни ещё более ярко и образно выражается именно в письме Сталину, которое, естественно, ему не передают, не считая важным. Напомним, что письмо было написано ещё до оглашения приговора, Нжде пока не мог быть уверен, что его оставят в живых. В этом письме Нжде, кажется, ничего нового не добавляет ко всему тому, что уже сказал и написал. Однако письмо само собой производит впечатление кульминации в трагикомедии от "непонятого рыцаря", умоляющего врага пощадить жизнь, это шедевр душераздирающего покаяния, апофеоз жанра.

(письмо не было отправлено Сталину)

Мое дело направлено в Москву. Я не ожидал двух вещей: во-первых, что после того, как я остался в Софии с целью найти общий язык с советской властью, меня арестуют, во-вторых, что меня привлекут к суду.

Помимо судебных кодексов и выше них имеется неписаный закон рыцарства, в случае игнорирования которого исчезает всякое доверие между людьми и народами. Нельзя, проанализировав психологию сделанного мною рыцарского шага, отказать мне в справедливости. Ибо тот, кто сделал такой шаг, как я, доказывает две вещи:

а) то, что он перестал себя чувствовать противником той власти, которой он доверяет;

б) что власть, которой он доверяет свою жизнь и достоинство, не может не ответить таким же рыцарским жестом на рыцарство.

Я не думаю, что была велика численность людей, которые повели себя так, как я, даже если их было больше одного. Если бы я смотрел на жизнь как на средство получения личного наслаждения, то и я бы уехал из Софии... Однако факт, что я не только не позволил себе враждебных поступков (учитывая при этом мои умения и возможности), но и, наоборот, совершил такие действия, которых мой противник, не будучи в курсе моего душевного состояния, от меня не ожидал. Рискуя своей жизнью, я сделал невозможными начинания предателя родины Дро, направленные против Армении. Я отговорил подготовленных им диверсантов отправиться в Советскую Армению (а одному из них - Грайру из Мегри - я устроил побег в Болгарию, чтобы его не принудили к отправке в Армению). Я не поехал на Восточный фронт, не позволил, чтобы мои ребята, подготовленные для действий против Турции, были использованы на антисоветском фронте. Я больше не появлялся у легионеров и не посещал концентрационных лагерей, тем самым давая понять военнопленным армянам, что не следует бороться за Германию. А до всего этого, до войны, я делал безуспешные попытки связаться с Вашим дипломатическим представительством. Наконец, я проявлял отрицательное отношение к белогвардейскому "РОВС" - у (Российский Общевойсковой Союз), который искал террористов для совершения покушения на Вашу жизнь. Моя связь с немцами имела антитурецкую основу и то в те дни, когда советско-германская дружба была еще в силе. Относительно моей деятельности в Зангезуре (по поводу чего мне было неоднократно сказано, что в силу политической давности об этом не может быть и речи), я должен сказать следующее: если бы не турецкий фактор, не было бы и Зангезурского противостояния. В свое время Советы, исходя из своих государственных интересов, оказали Турции серьезное содействие. Эта протурецкая политика не могла не возмутить тех, кто мыслил так же, как я. Темные и злокозненные происки пантюркистов на линии Анкара-Нахичевань-Баку и появление в том же году турецких батальонов в Зангезуре не могли не создать атмосферы подозрения и недоверия, что и спровоцировало противостояние. Полномочный представитель Красной Армии Геккер в своём официальном письме на мое имя частично проясняет происшедшее: "В Зангезуре взаправду имело место позорное событие, за что мы себя не хвалим". Речь идет о турецком полке.

Гражданин генералиссимус!

Вы отчасти знаете обо мне. Я не хотел бы жить, если бы не чувствовал, что есть еще задачи, ради которых стоит жить. Умереть? Есть ли что легче смерти для старого патриота и революционера? Не презрением ли к смерти объясняется то, что я не выехал из Софии? Меня не интересуют ни жизнь и ни смерть, а лишь последнее в этом мире мое желание: принять участие в гибели феодальной Турции. Поэтому я бы не хотел, чтобы тысячи моих последователей и друзей говорили: "Счастливцы турки, ибо один из их врагов убивает их другого врага!" Я не хотел бы умереть в Ваших тюрьмах. Зарубежные армяне скажут: "Большевики убили исторического врага Турции". Из моей смерти извлекут пользу Ваши враги. Я не уехал - доверяя Вам и будучи уверенным, что мой рыцарски-патриотический шаг по достоинству будет понят и оценен... Ныне, когда враги Советского Союза покровительствуют огромным антисоветским массам, принесение в жертву одного заклятого врага Турции не может не рассматриваться турками как знак слабости. Позвольте сказать еще одну истину.

***(Davamı gələn sayımızda)***